**26-27 May 2025-ci ildə layihələrin hazırlanması, sahibkarlıq fəaliyyətinin təşkili, əqli və sənaye mülkiyyəti hüquqları, patentləşmə prosesi, eləcə də universitet-sənaye əməkdaşlığı mövzularında keçirilən təlim**

Naxçıvan Dövlət Universitetində Texnoloji transfer və innovasiyalar sektorunun təşkilatçılığı ilə maarifləndirici təlim keçirilib. Türkiyə Cumhuriyyəti Gümüşhane Universitetinin rektoru Oktay Yıldız tərəfindən keçirilən 2 günlük təlimdə layihələrin hazırlanması, sahibkarlıq fəaliyyətinin təşkili, əqli və sənaye mülkiyyəti hüquqları, patentləşmə prosesi, eləcə də universitet-sənaye əməkdaşlığı mövzularında geniş marifləndirici məlumatlar verilib.

Üz-üzə formatda keçirilən təlimdə professor ilk olaraq layihələrin ideyadan icraya qədər olan mərhələlərini ətraflı izah etmişdir. O, sahibkarlıq və biznes ideyalarının idarə olunması məsələlərinə toxunaraq, tələbə və gənc mütəxəssislərin uğurlu biznes qurmaq üçün ehtiyac duyduğu bacarıqları vurğulayıb. Əqli və sənaye mülkiyyəti hüquqları ilə bağlı müəllif və ixtira sahiblərinin qorunması mexanizmlərini açıqlayıb, patentləşmənin innovasiyanın təşviqindəki rolunu diqqətə çatdırıb. Universitet-sənaye əməkdaşlığına dair çıxışında professor akademik biliklərin real sektora transferinin vacibliyini, ortaq layihələrin üstünlüklərini və bu prosesdə universitet heyətinin rolunu konkret nümunələr əsasında izah edib. Təlim interaktiv müzakirə formatında davam etdirilib.

Təlimin linki:
https://www.facebook.com/ndu.edu.az/posts/pfbid02hw9LSjc9dNx1oaJuungWaCxBMupEggNDnB2My4iaYJXbMrP8eU7FW9A4sHov5BN7l?__cft__[0]=AZWg1a_vkWKxnNLlgLLAWkokFRfuRGXHJvx5m4gJViJlYTONYwc-zDSv7h0xTIgqpiwFIkxpHi8ebqFi6DJv8RBPi3p1y-K2w6lJ8jzUsKHP1qpsYqQH7aBH56-MfcAyMlOtSTHGBSVYa57V2UoxxIgyLXz-TVzike6FHeTmiQbkxtVYVIFPmzJCXvNNHyUhljsoJZHnwAoiV-vw2M2_QOK_&__tn__=%2CO%2CP-R








